**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№380/2** **09 oktyabr 2025-ci il**

**2025-ci ilin I yarımilliyi üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının vəziyyətinə dair İcmal-Təhlil barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 5.11-ci "ƏL/TMM ilə bağlı monitorinqlərin keçirilməsi" bəndinin icrası ilə əlaqədar Palatanın Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsi (E.İbrahimov, H.Məmmədova) tərəfindən hazırlanmış "2025-ci ilin I yarımilliyi üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının vəziyyətinə dair İcmal-Təhlil"i müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "2025-ci ilin I yarımilliyi üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının vəziyyətinə dair İcmal-Təhlil" Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla bəyənilsin (əlavə olunur).

2. ƏL/TMM qanunvericiliyinə riayət olunmasına dair keçirilmiş monitorinqlərin nəticəsi qeyri-qənaətbəxş hesab edilən aşağıda adları qeyd olunan auditor təşkilatlarının rəhbərlərinə tapşırılsın ki, monitorinq zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılmasını qısa müddət ərzində təmin etsinlər:

- "Baker Tilly Audit Azərbaycan" QSC (direktor - Səfiyev Səyavuş Kavı oğlu);
- "Biznes Audit" MMC (direktor-Əliyev Məhərrəm Fayaz oğlu);
- "Bizcon" MMC (direktor - Bayramov Anar Cabir oğlu);
- "Compass Audit-Consulting" MMC (direktor - İsgəndərov Səməd Mahmud oğlu);
- "Delta Audit" MMC (direktor - Səmədov Elnur Əlirza oğlu);
- "Ekspert Finans Konsaltinq" MMC (direktor - Misiyafova Zöhrə Həkim qızı).

3. Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinə (E.İbrahimov, H.Məmmədova) tapşırılsın ki:

3.1. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2025-ci il üçün Plan-qrafik"ə uyğun olaraq işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin;

3.2. iki ay müddətində "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2026-cı il üçün Plan-qrafik"in layihəsi hazırlanıb təsdiq edilməsi üçün Palata Şurasının müzakirəsinə təqdim edilsin.

4. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, auditor xidmətləri göstərilərkən ƏL/TMM qanunvericiliyinə riayət olunmasını, habelə bu qanunvericiliyə dair yeniliklərin mütəmadi izlənilməsini və tətbiqini təmin etsinlər.

5. 2025-ci ilin I yarımili ərzində həyata keçirilmiş ƏL/TMM üzrə monitorinqlərdə fəal iştirak etdiklərinə görə Palatanın müfəttişlərinə – Alxaszadə Nigar Taleh qızına, Əkbərov Elçin Ehtibar oğluna, Hüseynov Aydın Həsən oğluna, Kərimov Şamxal Vəli oğluna, Qurbanov Elçin İbad oğluna, Talıbov Vidadi Musa oğluna şəxsi işlərinə qeyd edilməklə təşəkkür elan edilsin.

6. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 5-ci bəndindən irəli gələn məsələləri həll etsin.

7. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**